Ətraf mühitin iqtisadiyyatı
Kollekvium

1."Ətraf mühitin iqtisadiyyatı"fənninin əsasları

Cavab: İqtisadiyyat — istehsal üsullarının fərqləndirilməsi xüsusiyyətləridir. Geniş mənada iqtisadiyyat bütün iqtisadi bilik sahələrinin, eləcə də iqtisadi nəzəriyyənin öyrəndiyi, araşdırdığı obyektdir.
Elm tarixində ilk dəfə iqtisadiyyat anlayışını qədim yunan alimləri işlətmişlər.Yunan sözü olan "Oykonomiya" iki sözdən- "oykos" (ev, tə-sərrüfat) və "nomos" (qayda, qanun) söz birləşmələrindən yaranmışdır.Təsərrüfat və onun idarəedilmə qanunları mənasını daşıyan bu anlayış sonralar mürəkkəb və geniş bir fəaliyyət dairəsini, bütövlükdə iqtisadiyyat mənasını ifadə etməyə başlamışdır. Hazırda dünyanın əksər ölkələrində, müxtəlif dillərdə "Ekonomiks" geniş anlamlı bir kateqoriya kimi işlədilməkdədir.

Ətraf mühitin iqtisadiyyatı iqtisadiyyatın əsas sahələrindən biri olmaqla insan fəaliyyətinin mühüm aparıcı sahəsidir. O, iqtisadiyyat və ekologiya elmi arasında vasitəçilik edərək ətraf mühitin iqtisadiyyatını və mühafizəsini tədqiq edir. İqtisadiyyat insan cəmiyyətinin inkişafının bünövrəsini təşkil edirsə, ekologiya cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsində təbii tarazlığın pozulmasını öyrənir.Ətraf mühitin iqtisadiyyatı" fənni isə iqtisadiyyat və ekologiya fənnindən fərqli olaraq, dövlətin təbii mühitdən səmərəli istifadə etmək və təbiətin mühafizəsi siyasəti ilə üzvi surətdə əlaqəlidir. "İqtisadi nəzəriyyə" bütün konkret, xüsusi iqtisad elmləri sahələrinin nəzəri- metodoloji əsası olduğu kimi "Ətraf mühitin iqtisadiyyatı" elmi də ətraf mühitin iqtisadiyyatı və mühafizəsi sahələrinin tədqiqinin nəzəri-metodoloji əsasıdır. 1960-cı ildən sonrakı dövrdə yuxarıda sadalanan elmlər sırasına "ətraf mühitin iqtisadiyyatı" elmi də daxil edildi. Bu ətraf mühitin tədqiqində yeni bir ekoloji- iqtisadi sistem yaratdı.

2."Ətraf mühitin iqtisadiyyatı"fənninin tədqiqat üsulları,vəzifələri və ptredmeti

Cavab: Ətraf mühitin iqtisadiyyatı elmi təbiətlə cəmiyyət arasında baş verən qarşılıqlı əlaqə və təsiri öyrənib, onun nizamlanması üçün iqtisadi mexanizmlər hazırlayıb təklif edir. Ətraf mühitin iqtisadiyyatı – iqtisadiyyat elminin bir bölməsi olaraq insanların təsərrüfat fəaliyyətində ekoloji təhlükəzliyi təmin edən, təbii resursların kompleks şəkildə səmərəli istifadəsinə və onların tükənməsinin qarşısının alınmasına yönəlmiş tədbirləri özündə birləşdirən bir elm sahəsidir.

Ətraf mühitin iqtisadiyyatı elminin əsas vəzifələri aşağıdakılardır:
təbiətdən səmərəli istifadə üsul, vasitə və formalarının tədqiqi, normal həyat fəaliyyəti üçün şəraitə nail olunması;
resursların hərtərəfli və kompleks istifadəsinə yönəlmiş tədbirlərin əsaslandırılıb hazırlanması;
iqtisadiyyatın ekolojiləşdirilməsinin əsaslandırılması;
gələcək nəsillərin maraqları nəzərə alınmaqla cəmiyyətlə təbiətin qarşılıqlı əlaqə və təsirinin optimallaşma üsullarının hazırlanması;
təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin dövlət və regional idarəetmə orqanları sisteminin yaradılması.

Fənnin predmeti – insanların təsərrüfat və qeyri-təsərrüfat fəaliyyətində təbii resursların hasilatı, emalı, istehlak və istifadəsində yaranan sosial-iqtisad münasibətlərdən ibarətdir.

Ətraf mühitin iqtisadiyyatında əsas tədqiqat istiqamətləri aşağıdakılardır:
a)təbii resurs potensialı;
b)ekoloji problemlər və onların həlli yolları;
c)təbiətdən səmərəli istifadənin metodlarının hazırlanması;
ç)təbiətin mühafizə tədbirlərinin iqtisadi təhcizatı;
d)təbiətdən istifadənin dövlət tənzimlənməsi.
Ətraf mühitin iqtisadiyyatının qlobal məqsədi insanların təsərrüfat fəaliyyəti nəticəsində təbii sərvətlərdən səmərəli istifadə üsullarının, metod və qaydalarının, ekoloji təhlükəzliyini təmin etmə yollarının hazırlanmasıdır

3.Fənnin əsas tədqiqat metodları

Cavab: Hər bir elmi problemin, tədris fənninin öyrənilməsi müvafiq tədqiqat metodlarının köməyi ilə həyata keçirilir. Onun mahiyyətinin əsasını isə elmin metodologiyası təşkil edir. Ətraf mühitin istifadəsinin iqtisadiyyatında müxtəlif, hər şeydən əvvəl, təbiət, ictimai və başqa elm sahələrinin ümumi elmi metodlarından, bununla yanaşı, ekologiya və iqtisadiyyatın sintez tədqiqatlarının aparılmasında isə bir çox spesifik metodlardan istifadə olunur.

Bu metodlar aşağıdakılardır:

1. Dialektik metod – onun əsasında tədqiqatlara hərtərəfli baxmaq, inkişafda müxtəlif əksliklərin həllini tapmaq mümkündür. Dialektik metod ekoloji və iqtisadi proseslərin tədqiqatını vahid müstəvidə öyrənməyi təklif edir. Dialektik metodun prinsipial

xüsusiyyətlərindən biri təcrübə ilə nəzəriyyənin vəhdətindən ibarətdir. Ekoloji-iqtisadi tədqiqatların aparılması məqsədilə təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsini izləmək üçün bu metoddan istifadə olunur.

2. Tarixi metod – bu metodun böyük əhəmiyyəti vardır. Bu münasibətlərin tarixinin öyrənilməsi ekoloji-iqtisadi sistemin həm müasir vəziyyətinin, həm də gələcək inkişafının elmi əsaslandırılmış proqnozunun müəyyənləşdirilməsi üçün vacibdir.

3. Sistemli yanaşma – burada ekoloji-iqtisadi sistemin tərkib hissələri, xarici obyektlərin onlarla əlaqəsi, sistemin strukturunun müəyyənləşməsi, daha doğrusu, daxili əlaqələrin və münasibətlərin mahiyyəti araşdırılır. Ətraf mühitin istifadəsinin öyrənilməsində sistemli yanaşma təbii resursların mənimsənilməsi və istehsalı, ətraf mühitin mühafizəsi və ya bərpası istiqamətində mürəkkəb proseslərin tədqiqinə imkan verir.

4. Normativ metod – burada ekoloji normativlər (konsentrasiyanın buraxıla bilən həddi – KBH, tullantıların atıla bilən həddi – TAH, yaşıllıq zonalarının həddi və s.) əsas yer tutur. Məqsəd təbiətə antropogen təsirlərin mümkün ola bilən obyektiv sərhədlərini müəyyən etməkdir. Başqa normativlərdən də istifadə olunur (məsələn, tullantılar, resursa tələbat, ekoloji xərclərin iqtisadi effektivliyi və s.). Normativ bazalarsız təbiəti qoruma tədbirlərini və təbii sərvətlərdən səmərəli istifadəni həyata keçirmək mümkün deyildir.

5. İqtisadi-riyazi modelləşdirmə metodu – ekoloji-iqtisadi tədqiqatlar ilk dəfə xətti proqramlaşdırma üsulu ilə işlənmiş və bu zaman məhdud resursların yerləşməsi, eləcə də optimal texnoloji uyğunluğun seçilməsi məsələləri həll olunmuşdur. İqtisadi-riyazi metodlar təbii resursların iqtisadi qiymətləndirilməsi, təbii mühitin çirklənməsindən dəyən iqtisadi zərər və digər ekoloji-iqtisadi parametrlərin müəyyən edilməsində istifadə olunur.

6. Kartoqrafik metod – müəyyən ərazilərdə ekoloji-iqtisadi proseslərin təhlil olunması və insanın təsərrüfat fəaliyyətində onların qarşılıqlı əlaqələrinin öyrənilməsində böyük əhəmiyyətə malikdir. Bu metodun köməyi ilə təbii resursların qiymətləndirilməsi (yerləşməsi, ehtiyatı, məhsuldarlığı və s.), regionlarda təbii hadisələrin proqnozlaşdırılması, təhlükəli hadisələrin qarşısının alınması üçün tədbirlər hazırlanır, təbii resursların saxlanılması və istehlakı qiymətləndirilir.

7. Kosmik tədqiqatlar metodu – yeni və perspektiv əhəmiyyət kəsb edən tədqiqat metodudur. Yerin süni peykləri, kosmik stansiyalar və yerləşdirilmiş avadanlıqlar vasitəsilə aparılmış kosmik çəkilişlərdə yer haqqında daha geniş məlumatlar əldə olunur, qlobal təbii proseslərin izlənməsi həyata keçirilir. Həmçinin atmosferin, hidrosferin, litosferin strukturu, torpaq və bitki örtüyü, eləcə də insanın təsərrüfat fəaliyyətinin müəyyən istiqamətləri (ətraf mühitə antropogen təsirlər, atmosferdə aerozonaların tərkibi və yayılması, su hövzələrinin çirklənməsinin qiymətləndirilməsi, tullantıların yerləşdirilməsi və s.) öyrənilir. Kosmik tədqiqat metodunun elmi və təcrübi əhəmiyyəti ondan ibarətdir ki, burada təbii mühit komponentləri ilə ayrı-ayrı təsərrüfat fəaliyyətləri arasındakı qarşılıqlı əlaqələr kosmik çəkilişlər və müşahidələr əsasında aparılır.

4.Təbiət-təbiətdən istifadənin maddi əsasıdır; ekstrenalların növləri

Cavab: Təbiət - geniş mənada kainatın bütöv madd-enerji və informasiya dünyasıdır. Təbiət anlayışının ikinci mənasında, adətən insan cəmiyyətinin yaşadığı təbii şəraitin cəmi başa düşülür, insanlar öz təsərrüfat fəaliyyəti ilə ona bir başa və ya dolayısı ilə təsir edirlər.

Cəmiyyət-təbiət sisteminə baxılarkən məhz bu anlayış nəzərdə tutulur. "Təbiətdən istifadə" təbii-resurs potensialının istismarının bütün formalarının və onun qorunması tədbirlərinin cəmini əhatə edir. Təbiətdən istifadə özündə aşağıdakıları birləşdirir:

•təbii resursların hasili və emal edilməsi, onların bərpası və təkrar istehsalı;
•təbii həyat mühiti şəraitindən istifadə və onun mühafizəsi;
•təbii sistemlərin ekoloji balansının saxlanması, təkrar istehsalı (bərpası) və sərfəli dəyişdirilməsi.

Bu cəmiyyətin inkişafı üçün təbii resurs potensialının saxlanmasına xidmət edir. Təbiətin resurs potensialı müxtəlif amillər üzrə öz mənbələri və yerləşmə məntəqələrinə, tükənmə sürətinə, özünübərpa imkanına, bir resursun digərilə əvəzolunma imkanına və s. görə səciyyələndirilir.

Eksternalların növləri - Təbiətdən istifadənin iqtisadiyyatında ən mühüm anlayışlardan biri ekstrenallar (xarici təsirlər) hesab olunur. İqtisadi fəaliyyətin gedişində daima təbiətə, insanlara, müxtəlif obyektlərə və s. təsirlər baş verir. Eksternalların meydana çıxması da bu təsirlərlə bağlıdır.

Eksternallar – iqtisadi fəaliyyətin meydana çıxardığı nəticələrdir, onlar da digər tərəfə müsbət və ya mənfi təsir göstərirlər.

Müxtəlif növlü təsirlərdən (vaxt kəsiyində, sektorlar və ya regionlar arasında və s.) asılı olaraq, eksternalların aşağıdakı növlərini fərqləndirmək olar:

Zaman (nəsillər arası) eksternallar- Eksternalların bu tipi dayanıqlı inkişaf konsepsiyası ilə sıx bağlıdır. Müasir nəsil öz tələbatlarını gələcək nəslin tələbatını azaltmamaq şərtilə ödəməyə borcludur. Müasir nəsil hazırda qlobal ekoloji problemlər yaradaraq, bərpa olunmayan ehtiyatlar tükənməklə, ətraf mühiti çirkləndirməklə, gələcək nəsillər üçün böyük ekoloji, iqtisadi, ictimai problemlər yaradır. Burada prinsipial iqtisadi problem, müasir nəsil tərəfindən gələcək nəslin üzərinə əlavə, eksternal məsrəflərin qoyulmasıdır. Belə ki, yaxın gələcəkdə neft ehtiyatlarının tükənməsi, kənd təsərrüfatı təyinatlı torpaqların yararsız hala salınması, gələcək nəsil üçün böyük enerji və yeyinti məhsulları problemləri yaradacaq, indiki zamanla müqayisədə ilkin tələbatı ödəmək üçün xərclərin kəskin artımını tələb edəcəkdir. Bu mənfi zaman eksternallarıdır. Müsbət zaman eksternallarının mövcudluğu da mümkündür. İndiki dövrdə texnologiyaların təkmilləşdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətləri gələcəkdə xərclərin aşağı salınmasına imkan yaradır. Məsələn, enerji istehsalının ucuz başa gələn texnologiyaları (Günəş, külək və s.) gələcəkdə əhəmiyyətli iqtisadi səmərə verəcəkdir.

Qlobal (ölkələrarası) eksternallar- Planet miqyasında bu cür eksternallar artıq bir sıra konkret problemlər doğurmuşdur. Bir ölkədə kimyəvi birləşmələrin havaya atılması, çayların, dənizlərin çirkləndirilməsi və digər ekoloji təsirlər ölkələr üçün əhəmiyyətli ekoloji-iqtisad problemlər yaradır. Ermənistan Respublikasında çay sularının çirkləndirilməsi ölkəmizi suyun təmizlənməsi üçün əlavə xərclər ayırmağa məcbur edir. Bu cür mənfi ekoloji təsirlər dünyada gündən-günə çoxalır. Hazırda dünya ölkələri bu problemin ciddiliyini başa düşürlər, xüsusi

dünya konvensiyaları və razılaşmalarına imza atılır, ölkələr arasında sərhədləri keçən çirkləndiricilərlə mübarizə üçün müqavilələr bağlanır.

Sahələrarası eksternallar- İqtisadiyyatın ayrı-ayrı sahələrinin, xüsusilə, təbii ehtiyatları istismarla məşğul olan sahələrin inkişafı digər sahələrdə əhəmiyyətli ekoloji itkilərə gətirib çıxarır. Məsələn, Xəzəryanı ölkələrin dənizdə intensiv neft və qaz axtarışı və hasilatı balıqçılıq və balıq məhsulları sahəsinə ciddi ziyan vurur. Müsbət sahələrarası eksternallarda mövcuddur, bir sahənin inkişafı digər sahələrdə müəyyən iqtisadi-ekoloji səmərə verə bilər.

Regionlararası eksternallar- Bu eksternallar qlobal eksternalların kiçildilmiş növüdür (yalnız bir ölkə daxilində). Azərbaycan Respublikası kimi nisbətən kiçik bir ölkədə də bu problem mövcuddur. Məsələn, Kür çayının yuxarı axarında yerləşən regionlar, aşağı regionlar üçün suyun təmizlənməsinə əlavə xərclər ayırmaq kimi problemlər yaradır.

Lokal eksternallar- Bu halda məhdud ərazidə müəssisə - çirkləndiricinin fəaliyyəti öyrənilir, onun fəaliyyəti nəticəsində yaranan eksternal xərclər (digər müəssisələrdə, əhalidə, təbii obyektlərdə və s.) təhlil edilir.

5.Davamlı (Sabit) İqtisadi inkişaf konsepsiyası,əsas hədəfləri

Cavab: Dayanaqlı inkişaf elə bir inkişafdır ki, indiki zamanda tələbatı təmin edir, lakin gələcək nəsillərin öz tələbatlarını ödəməsini təhlükə altında qoymur. O özündə əsas iki anlayışı birləşdirir:
1.Tələbat anlayışı, o cümlədən, birinci dərəcəli üstünlüyə malik olan,
əhalinin ən kasıb təbəqəsinin mövcudluğu üçün zəruri olan tələbat;
2.Məhdudiyyət anlayışı, indiki və gələcək tələbatları ətraf mühitin ödəyə bilməsi imkanlarına qoyulan, texnologiya və cəmiyyətin təşkilinin vəziyyəti ilə şərtləndirilən məhdudiyyətlər.
Dayanaqlı inkişafın bu təyininə nəsillər arasında iqtisadi münasibətlər prizmasından da – müasir nəsil daxilində (o cümlədən ictimai aspekt) – baxmaq mümkündür.
Beləliklə, iqtisadi və ictimai inkişafın qarşısında duran məsələlər onun sabitliyinin nəzərə alınması, bütün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ekoloji vəziyyətinə uyğun olması yolu ilə müəyyən edilməlidir.
Uzunmüddətli perspektivdə dayanaqlı inkişafın dörd kriteriyasını fərqləndirmək olar. Bu təbii resursların sinifləşdirilməsi onların təkrar istehsal dinamikasına əsaslanır.
Birinci, bərpa oluna bilən təbii resurslar üçün onların miqdarı ən azı vaxt kəsiyində azalmamalıdır, daha doğrusu, ən azı onların sadə təkrar istehsal rejimi təmin olunmalıdır. Məsələn, torpaq resursları üçün bu o deməkdir ki, qiymətli kənd təsərrüfatı sahələri saxlanılmalı, sahələrin azaldıldığı halda onlardan məhsul istehsalının səviyyəsi saxlanılmalı və artırılmalıdır.
İkinci, bərpa oluna bilməyən təbii resurslar üçün (məsələn, faydalı qazıntılar) onların ehtiyatlarının mənimsənilmə sürətinin azaldılması və onların gələcəkdə qeyri-məhdud resurs növləri ilə əvəz edilməsi. Məsələn, neft mənbələrinin – külək, Günəş və s. enerjisi ilə müəyyən qədər əvəz edilməsi.
Üçüncüsü, tullantılar üçün onların miqdarının, az tullantılı, resurslara qənaət edən texnologiyanın tətbiq edilməsi yolu ilə minimumlaşdırılması imkanları nəzərə alınmalıdır.
Dördüncüsü, ətraf mühitin çirklənmə səviyyəsi (həm cəm şəklində, həm də növlər üzrə) gələcəkdə onun müasir səviyyəsini aşmamalıdır, çirklənmə səviyyəsinin ictimai və iqtisadi

cəhətdən qəbul oluna biləcək səviyyəyə qədər azadılması imkanları nəzərə alınmalıdır (çirklənmənin "sıfır" səviyyəsi real deyildir). İnsanların tələbat davranışının dəyişməsinin əhəmiyyətini də qeyd etmək lazımdır. Dayanaqlı inkişafa keçid əmtəə və xidmətlərə müəyyən məhdudiyyətlərin olmasını da ehtimal edir. "Daha çox istifadə edin, hər ailə üzvünə bir avtomobil və s." kimi çağırışlar açıq-aşkar biosferanın imkanları ilə əkslik təşkil edir. Dayanaqlı inkişaf konsepsiyasına bu cür qısa baxış belə, onun necə qlobal xarakter daşıdığını, bu konsepsiyada mürəkkəb ekoloji, iqtisadi və ictimai problemlərin bir-birilə uzlaşdığını göstərir.

6.Atmosferin strukturu, qaz tərkibi və dinamikası.

Atmosfer — Yer planetini əhatə edən qaz örtüyüdür. "Atmos" yunan sözü olub "buxar", "sfera" isə "kürə" mənasındadır. Atmosferin qalınlığı təxminən 2000–3000 km-ə qədərdir. Havanın ümumi kütləsi təxminən $5{,}1\times10^{18}$ kq-dır.
Quru atmosfer havası müxtəlif qazların müəyyən nisbətdə mexaniki qarışığından ibarətdir:
Azot (N_2) – 78,08 %
Oksigen (O_2) – 20,95 %
Argon (Ar) – 0,93 %
Karbon qazı (CO_2) – 0,03 %
Qalan hissə – ozon, su buxarı, hidrogen və digər qazların az miqdarıdır.
Atmosferin 50%-i onun aşağı 5 km-lik qatında, 75%-i 10 km, 90%-i isə 16 km hündürlükdə yerləşir.

Atmosferin quruluşu (qatları):
•Troposfer – Havanın 80%-i bu qatda toplanıb. Hündürlük artdıqca hər 100 metrdə temperatur 0,6°C azalır. Buludlar, yağışlar, küləklər, siklonlar burada yaranır.
•Stratosfer – 10–50 km arasında yerləşir. Burada ozon qatı var və Günəşin ultrabənövşəyi şüalarını udur.
•Mezosfer – 50–80 km arası. Burada temperatur -75°C-yə qədər azalır.
•Termosfer (ionosfer) – 80–700 km arası. Burada qazlar ionlaşır, qütb parıltıları yaranır.
•Ekzosfer – 700–3000 km arası, qazların sıxlığı çox azdır, hidrogen və helium üstünlük təşkil edir.

Atmosferin dinamikası – yəni havanın hərəkəti və dövranı deməkdir. Bu hərəkətlər Günəş radiasiyasından alınan istilik enerjisi nəticəsində baş verir. Hava kütlələrinin yerdəyişməsi nəticəsində küləklər, siklonlar, antisiklonlar, hava cəbhələri yaranır. Atmosferin bu dinamik fəaliyyəti iqlimin formalaşmasında və maddi nemətlərin yaranmasında mühüm rol oynayır.

7.Atmosferin fiziki xassələri və atmosferdəki buludlar.

Atmosferin fiziki xassələri:
Atmosferin əsas fiziki xassələri Günəş radiasiyası, temperatur, təzyiq, rütubət, küləklər və havanın tərkibidir. Günəşdən Yerə gələn enerjinin məcmusu Günəş radiasiyası adlanır və bu

enerji Yer səthinin qızması, iqlimin və hava proseslərinin formalaşması üçün əsas mənbədir. Radiasiya düz, səpələnən və əks olunan formalarında Yerə çatır.
Yerə düşən radiasiyanın bir hissəsi səth tərəfindən udulur, bir hissəsi isə səthdən əks olunur. Əks olunan radiasiyanın ümumi radiasiyaya nisbəti albedo adlanır. Məsələn, təzə qar Günəş radiasiyasının 95%-ni, su səthi isə 15%-ni əks etdirir.
Havanın temperaturu yüksəklik artdıqca azalır — hər 100 metrdə orta hesabla 0,6°C aşağı düşür. Bu hadisə şaquli temperatur qradiyenti adlanır.
Atmosfer təzyiqi də hündürlük artdıqca azalır — hər 100 metr yuxarı qalxdıqda təzyiq təxminən 10–11 mm civə sütunu qədər aşağı düşür.
Havanın rütubəti atmosferdəki su buxarının miqdarı ilə müəyyən olunur. Rütubət mütləq və nisbi olmaqla iki cür olur.
Mütləq rütubət – 1 m³ havada olan su buxarının miqdarıdır.
Nisbi rütubət – havadakı su buxarının, eyni temperaturda maksimal miqdarda saxlaya biləcəyi buxara nisbətidir və faizlə ifadə olunur.
Hava soyuduqda rütubət doymuş vəziyyətə çatır və kondensasiya baş verir. Bu zaman su buxarı maye halına keçir və buludlar əmələ gəlir.

Atmosferdə buludluluq-Atmosferdə suyun miqdarı 14min km3-dir. Atmosferdə olan su buxarı 8-10 sutka ərzində bir dəfə dəyişir. Sərbəst atmosferdə kondensasiya və sublimasiya məhsullarının və ya onların qarışığının toplanması ilə bulud (clouds) əmələ gəlir. Buludların yaranma hündürlüyü temperaturdan və nisbi rütubətlikdən asılıdır.
Yuxarı qalxan su buxarı müəyyən hündürlükdə soyuyur və kondensasiya olunur. Nəticədə buludlar yaranır. İsti və soyuq atmosfer cəbhələrinin qarşılaşması zamanı yüngül olan isti hava yuxarı qalxır. Bu zaman buludların əmələ gəlməsi sürətlənir. Buludlar əsasən cəbhə zonalarında formalaşır. Onlarda su damcılarının diametri 0,01-0,001mm arasında dəyişir. Hazırda yaranmasına və xarici görünüşünə görə 10 növ bulud ayrılır. Onlar da müxtəlif formalara bölünür. Formasına görə lələkvari, laylı və topa buludlar vardır.
Lələkvari buludlar (Cirrus) atmosferdə Yerdən 6000m-dən yuxarı sahələrdə və troposferin daha yuxarı hissələrində əmələ gəlir. Bu buludlar alçaq temperatur şəraitində yarandığına görə buz kristallarından ibarət olur, yağıntı vermir. Onların lələkvari, lələkvari-topa (Cirrocumulus) və lələkvari-laylı (Cirrostratus) formaları olur.
Topa buludlar (Cumulus) atmosferin 2km hündürlüyündən 6km hündürlüyədək hissələrində yerləşir. Bəzən onlar daha da yuxarı qalxır. Topa buludlar orta enliklərdə ilin isti vaxtlarında yaranır.
Laylı buludlar (Stratus) 2000m-ə qədər yüksəklikdə yaranır, uzunmüddətli yağıntılar və zəif qar verir. Onlar yekcins, boz laylı olur, yuxarı qalxmış dumana oxşayır.
Bu qruplarla yanaşı qurşaq buludları da vardır. Qurşaq buludlar qrupuna yüksək-topa (Altocumulus) və ya dalğavari buludlar daxildir. Onlar 2km-dən 6-8km-ə qədər yüksəkliklər arasında əmələ gəlir. Eyni ölçülü damcılardan ibarət olan buludlar az hallarda yağıntı verir. Onlara laylı-topa (Stratocumulus) buludlar deyilir. Qurşaq buludlar qrupuna yüksək-laylı (Altostatus) buludlar da daxildir.
Göyün buludlarla örtülmə dərəcəsinə buludluluq deyilir. Buludluluq 10 balla və ya faizlə ölçülür. Yer üzərinin orta hesabla buludlarla örtülmə dərəcəsi 54%-dir (5,4 bal). Quru sahələrdə orta buludluluq 4,8 bal, okeanların üzərində 5,8 bala bərabərdir.

8.Maddi nemətlərin formalaşmasında atmosferdəki qazların rolu.

Atmosfer Yer kürəsini əhatə edən hava qatı olub, onun tərkibində müxtəlif qazlar, su buxarı və toz hissəcikləri vardır. Bu qazlar ekoloji tarazlığın qorunmasında və maddi nemətlərin formalaşmasında mühüm rol oynayır. Atmosferdəki əsas qazlara karbon qazı, oksigen, azot, su buxarı və ozon daxildir.

Karbon qazı (CO_2)-Karbon qazı bitkilərin fotosintez prosesi üçün əsas maddədir. Bitkilər günəş enerjisi ilə karbon qazını birləşdirərək üzvi maddələr əmələ gətirirlər. Bu üzvi maddələr insan və heyvanların qidasını təşkil edir. Beləliklə, karbon qazı maddi nemətlərin – qida, pambıq, meyvə, ağac və s. – formalaşmasında mühüm rol oynayır.

Oksigen (O_2)- Oksigen canlıların nəfəs alması üçün zəruridir və yanma proseslərini təmin edir. Fotosintez nəticəsində bitkilər atmosferə oksigen buraxır. Oksigen həm bioloji, həm də sənaye fəaliyyətində – xüsusilə enerji istehsalı və metallurgiya sahəsində – əvəzsiz qazdır.

Azot (N_2)- Azot atmosferin əsas hissəsini təşkil edir. Bu qaz bitkilərin zülal və amin turşularının əmələ gəlməsi üçün vacibdir. Azot dövranı nəticəsində torpağın məhsuldarlığı artır və bu, kənd təsərrüfatında məhsul bolluğuna səbəb olur.

Su buxarı (H_2O)- Su buxarı buludların və yağıntıların əmələ gəlməsində mühüm rol oynayır. O, iqlimi və istilik balansını tənzimləyir. Yağıntılar torpağın münbitliyini təmin edir və suvarma üçün əsas mənbə sayılır.

Ozon (O_3)- Ozon təbəqəsi isə Yer səthini Günəşin zərərli ultrabənövşəyi şüalarından qoruyur, bununla da canlı aləmin həyatını davam etdirməsi üçün əlverişli şərait yaradır.

Beləliklə, atmosferdəki qazlar maddi nemətlərin formalaşmasında, canlı aləmin yaşamasında və təbii tarazlığın qorunmasında əvəzolunmaz rol oynayır.

9.İqlim ehtiyatlarının ekoloji-iqtisadi qiymətləndirilməsi və aqroiqlim rayonlaşdırılması.

İqlim ehtiyatlarının ekoloji-iqtisadi qiymətləndirilməsi — iqlim amillərinin təsərrüfat fəaliyyətinə, təbiətə və cəmiyyətə göstərdiyi təsirin elmi və praktik baxımdan müəyyənləşdirilməsidir. İqlim təbii ehtiyat kimi insan fəaliyyətinə çox ciddi təsir göstərir, çünki kənd təsərrüfatı, sənaye, enerji, nəqliyyat, turizm və digər sahələrin inkişafı bilavasitə iqlimlə bağlıdır.
İqlim ehtiyatlarının ekoloji qiymətləndirilməsi, onların ekosistemlərdə oynadığı rolu, ekoloji tarazlığa, torpağın münbitliyinə, su rejiminə, bitki və heyvan aləminə təsirini müəyyənləşdirməklə həyata keçirilir. Yəni iqlim şəraiti ekosistemin davamlılığını təmin edən əsas amillərdəndir.
Məsələn, temperatur, rütubət, günəş radiasiyası, yağıntı, küləklər və s. iqlim elementləri biosferdə həyatın formalaşmasında mühüm rol oynayır. Bu elementlərdə yaranan dəyişikliklər (məsələn, iqlim dəyişikliyi, istiləşmə, quraqlıq) ekoloji tarazlığı poza bilər.
İqtisadi qiymətləndirmə isə iqlim ehtiyatlarının təsərrüfat fəaliyyəti üçün dəyərinin müəyyən

edilməsidir. Məsələn, əlverişli iqlim şəraiti kənd təsərrüfatı məhsuldarlığını artırır, enerji sərfiyyatını azaldır, turizmi inkişaf etdirir. Əksinə, iqlimdəki mənfi dəyişikliklər iqtisadi zərərlərə səbəb ola bilər. Buna görə də iqlim ehtiyatlarının iqtisadi dəyəri həm məhsuldarlığa, həm də xərclərə təsiri ilə qiymətləndirilir.
Beləliklə, iqlim ehtiyatlarının ekoloji-iqtisadi qiymətləndirilməsi onların:
təbiətdəki tarazlıq yaratma qabiliyyətini,
iqtisadi fəaliyyətlərə təsir gücünü,
insanların həyat keyfiyyətinə və sağlamlığına təsirini nəzərə alır.
Aqroiqlim rayonlaşdırılması
Aqroiqlim rayonlaşdırılması — kənd təsərrüfatının düzgün təşkili üçün ərazinin iqlim xüsusiyyətlərinə görə bölgülərə ayrılması deməkdir. Bu zaman temperatur, yağıntı miqdarı, günəş radiasiyası, rütubət, küləklər və vegetasiya dövrünün uzunluğu əsas götürülür.
Aqroiqlim rayonlaşdırılmasının məqsədi — kənd təsərrüfatı bitkilərinin iqlim şəraitinə uyğun əkilib-becərilməsini təmin etmək, məhsuldarlığı artırmaq və riskləri azaltmaqdır.
Məsələn, Azərbaycanda:
Aran rayonları daha isti və quraq olduğuna görə pambıq, üzüm, qarpız kimi istiliksevən bitkilər üçün əlverişlidir;
Dağətəyi rayonlarda isə taxıl, kartof, meyvəçilik inkişaf etdirilir;
Dağlıq bölgələrdə isə heyvandarlıq və yaylaq təsərrüfatı daha uyğundur.
Aqroiqlim rayonlaşdırılması həm də kənd təsərrüfatının planlaşdırılmasında, suvarma sistemlərinin qurulmasında, gübrələmə və məhsul yığım vaxtının müəyyənləşdirilməsində mühüm rol oynayır.
Bu bölgülər iqlim ehtiyatlarının səmərəli istifadə olunmasına, təbiətin qorunmasına və ekoloji tarazlığın saxlanmasına kömək edir.

10.Azərbaycan Respublikasının aqroiqlim ehtiyatlarının iqtisadi qiymətləndirilməsi.

Azərbaycanın iqlim şəraiti təsərrüfatın, xüsusilə də kənd təsərrüfatının inkişafı və əhalinin yerləşməsi üçün çox əlverişlidir. Ölkə əhalisinin 9/10 hissəsi illik orta temperaturu 10°C-dən yüksək olan yerlərdə yaşayır.
İqlimin kənd təsərrüfatı bitkilərinin yetişməsinə təsir edən xüsusiyyətlərinə aqroiqlim ehtiyatları deyilir. Bunlara günəş enerjisi, yağıntı miqdarı, istilik və rütubət nisbəti, qar örtüyü və torpaqda olan rütubət daxildir.
Aqroiqlim ehtiyatlarının əsas göstəricilərindən biri effektiv (fəal) temperaturdur. Bu, havanın sutkalıq orta temperaturu 10°C-dən yuxarı olan günlərin illik cəmidir. Bitkilər 10°C-dən yuxarı temperaturda inkişaf etdiyinə görə bu göstərici çox vacibdir. Azərbaycanın düzənliklərində bu göstərici 4500–4600°C-yə çatır. Bu da pambıq, üzüm, çay və sitrus kimi istiliksevər bitkilərin yetişməsinə şərait yaradır. Hətta bəzi yerlərdə ildə 2–3 dəfə məhsul götürmək mümkündür.
Kür-Araz ovalığında qışlar mülayim keçdiyi üçün payızda əkilən taxıllar qışda qalır, yayın əvvəlində məhsul yığılır. Dağlıq bölgələrdə isə hava soyuq olduğuna görə kənd təsərrüfatı

məhsulları əsasən yaz və yay aylarında əkilir.
Düzən rayonlarda və dağətəyi zonalarda buxarlanma çox yüksəkdir (1400 mm-ə qədər), rütubət isə az olur. Buna görə bu yerlərdə suvarma vacibdir. Lakin Böyük və Kiçik Qafqazın dağlıq hissələrində və Talış dağlarında rütubət kifayət qədərdir, orada dəmyə əkinçilik mümkündür — yəni suvarmadan, torpaqda olan təbii rütubətlə məhsul yetişdirilir.
Alçaq dağlıq zonalarda üzüm, taxıl və meyvə əsasən dəmyə şəraitində əkilir. Yüksək dağlarda isə hava sərin olsa da, müəyyən dərəcədə əkinçilik mümkündür.
Qobustan və Abşeronda küləklər çox əsir. "Xəzri" küləyi ildə 300 gün müşahidə olunur. Bu da külək enerjisindən istifadə üçün böyük imkan yaradır. Xəzər sahillərində çoxlu Günəşli günlər olduğuna görə kurort və istirahət zonalarının yaradılması da mümkündür.
Amma iqlim hadisələrinin mənfi təsirləri də olur: quraqlıq, güclü küləklər, şaxtalar, dolu və sel kənd təsərrüfatına zərər vurur.
Məsələn, 1951, 1971 və 1975-ci illərdə güclü quraqlıqlar nəticəsində məhsul itkisi baş vermişdir. Quraqlıq zamanı hava çox isti olur, torpaq quruyur, rütubət azalır. Bəzən "ağ və qara yel" adlanan isti və quru küləklər vəziyyəti daha da ağırlaşdırır.
Dağətəyi və dağlıq rayonlarda ildə 5–10 gün, düzənliklərdə isə 3–4 gün dolu yağır və bu da məhsula ciddi zərər vurur. Leysan yağışları da torpağın məhsuldar qatını yuyur, sel və daşqınlar yaradır. Nəticədə torpaq bəzən əkin və heyvandarlıq üçün yararsız hala düşür.
Bütün bu problemlərin qarşısını almaq üçün:
Suvarma sistemləri genişləndirilməli,
Torpaq qoruyucu meşə zolaqları salınmalı,
Təbiətə insan təsiri (antropogen təsir) azaldılmalıdır.

11.Hidrosferin strukturu və dünya okeanı sularının fiziki xassələri, ekoloji problemlər

Hidrosfer, Yer səthini əhatə edən su təbəqəsidir və bütün su resurslarını birləşdirir. Buraya okean və dəniz suları, materiklərdəki yeraltı və səth suları, həmçinin qar və buzlaqlar daxildir. Dünya okeanında suyun 96,5%-i, yeraltı sularda 1,7%-i, qar və buzlaqlarda 2%, səth sularında isə yalnız 0,02% toplanmışdır. Atmosferin yuxarı hissələrində də müəyyən miqdarda su vardır; buludlarda yığılan sular hidrosferdəki suyun 0,001%-ini təşkil edir. Hidrosferdəki suyun ümumi həcmi təxminən 1,4 milyard km³-dür.

Hidrosferin yaranmasında əsas rol üç mənbəyə aiddir:

1. Mantiyadan çıxan sular: Vulkan püskürmələri zamanı Yerin daxilindən su buxarı çıxır və səthə çatır.

2. Kosmosdan gələn sular: Meteoridlər vasitəsilə Yer səthinə gələn su geoloji dövr ərzində əhəmiyyətli miqdarda toplanmışdır.

3. Atmosferdə hidrogen və oksigenin birləşməsi: Günəşdən gələn maddələrin təsiri ilə yeni su molekulları yaranır.

Dünya okeanı 4 əsas hissəyə bölünür: Sakit, Atlantik, Hind və Şimal Buzlu okeanlar. Okeanların orta dərinliyi təxminən 3711 m, ən dərin nöqtəsi isə Mariana çökəkliyi (11022 m)-dir. Okeanların yaranması isə fərqli geoloji dövrlərdə baş vermişdir: məsələn, Sakit okeanı Arxey dövründə, Hind okeanı Polezoy erasına aid, Atlantik okeanın cənub yarısı isə Tabaşir dövründə formalaşmışdır.

Okeanların fiziki xassələri müxtəlif amillərdən asılıdır:

1. Temperatur:
Okean sularının səth temperaturu coğrafi enlik, okean cərəyanları, küləklər, suyun dərinliyi və ilin fəsillərinə görə dəyişir. Tropik enliklərdə səth temperaturu 27,4°C, orta okean temperaturu isə 4°C-dir. Qütblərdə temperatur -1°C-dən -2°C-ə qədər düşür. Dərinlik artdıqca temperatur azalmağa başlayır; 1000 m-də 3,8°C, 5000 m-də isə 2,5°C-ə qədər düşür.

2. Sıxlıq:
Okean suyunun sıxlığı temperatur, təzyiq və duzluluqdan asılıdır. Orta sıxlıq 1025 kg/m³, 500 m dərinlikdə isə 1050 kg/m³ təşkil edir.

3. Şəffaflıq və rəng:
Okean sularının şəffaflığı işığın dərinliyə keçməsini müəyyən edir. Ən yüksək şəffaflıq Sakit okeanın mərkəzində 67 m ölçülmüşdür. Plankton və su bitkiləri yalnız Günəş işığının keçdiyi dərinlikdə inkişaf edə bilir.

4. Duzluluq və kimyəvi tərkib:
Okean suyu 96,5% təmiz su, 3,5% isə duz və bərk hissəciklərdən ibarətdir. Ən çox rast gəlinən elementlər xlor, natrium, maqnezium və kükürdür. Orta duzluluq 35‰-dir, yəni hər litr suda 35 qram duz var. Okean atmosferdəki qazların miqdarını tənzimləyir, həm havadan qaz udur, həm də geri verir. Suda oksigen miqdarı temperatur azaldıqca artır, bu isə dəniz ekosistemləri üçün həyati əhəmiyyət kəsb edir.

5. Su xüsusiyyətləri:
Su təbiətdə üç halda mövcuddur: bərk (buz), maye və qaz (buxar). Sıxlıq +4°C-də maksimum, donduqda isə həcmi təxminən 10% artır. Fotosintez zamanı suyun bir hissəsi oksigen əmələ gətirmək üçün istifadə olunur.

Ekoloji problemlər

Hidrosferin ekoloji vəziyyəti insan fəaliyyəti və iqlim dəyişiklikləri ilə birbaşa bağlıdır. Okeanların istiliyi, duzluluğu və kimyəvi tərkibi dəyişir. Atmosferdəki karbon qazı sular tərəfindən udulur və bu, ekosistemdə balansın pozulmasına səbəb olur. Suyun çirklənməsi, tullantıların okeanlara axıdılması, neft sızmaları və şirin su ehtiyatlarının azalması

hidrosferin ən əsas ekoloji problemləridir. Okeanların istiləşməsi və suların tərkibindəki dəyişikliklər dəniz canlılarına, həmçinin qlobal iqlimə mənfi təsir göstərir.

12.Hidrosferin dünya təsərrüfat sistemində rolu və təbiətdəki su dövranlarının növləri

Hidrosfer, yəni Yer səthindəki bütün su təbəqələri, dünya təsərrüfat sistemində çox mühüm rol oynayır. Hidrosfer digər təbəqələrlə suyun dövranı vasitəsilə sıx əlaqədədir. Suyun dövranı nəticəsində hidrosferin bütün elementləri – okeanlar, dənizlər, çaylar, göllər, buzlaqlar, torpaq və atmosfer – bir-biri ilə əlaqə qurur və bu, həm təbiət, həm də insan fəaliyyətləri üçün həyati əhəmiyyət kəsb edir. Suyun dövranı sayəsində torpaqlar rütubətlənir, çaylar və göllər su ilə qidalanır, bitkilər fotosintez üçün su əldə edir və atmosferdə temperaturun tarazlığı təmin olunur.

Təbiətdə su dövranı müxtəlif növlərdə baş verir. Böyük su dövranı okean səthində buxarlanan suyun külək vasitəsilə materiklərə daşınması, orada atmosfer yağıntısı şəklində düşməsi və çaylarla yenidən okeana qayıtması prosesini əhatə edir. Bu dövran zamanı suyun tərkibi təmizlənir, duzlu su şirin suya çevrilir və suyun keyfiyyəti yenilənir. Kiçik su dövranı isə okean səthindən buxarlanan suyun kondensasiya olunaraq birbaşa yenidən okeana düşməsini nəzərdə tutur. Kontinental su dövranı zamanı isə quru səthindən buxarlanan su atmosfer yağıntısı şəklində yenidən quruya düşür və materik sularını təmin edir.

Suyun dövranı nəticəsində torpağa düşən yağıntılar mineral maddələri həll edir, bitkilər onları mənimsəyir və fotosintez prosesi üçün istifadə edir. Çaylarla okeana qayıdan sular isə çöküntü süxurlarını apararaq relyefin formalaşmasında mühüm rol oynayır. İnsan təsərrüfatı da su dövranına təsir göstərir: meşələrin qırılması, torpaqların qurudulması və dənizlərin çirklənməsi buxarlanan suyun miqdarını azaldır, lakin su anbarları və suvarma sistemləri bu miqdarı artırır.

Dünya okeanları isə hidrosferin ən zəngin təbii ehtiyatlarını təşkil edir. Onlarda su, mineral, enerji və bioloji resurslar mövcuddur. Okean suyundan natrium, xlor, yod, maqnezium, brom və digər faydalı elementlər alınır. Okeanların dibində neft, təbii qaz, dəmir, manqan, almaz və digər minerallar yerləşir. Şelf zonasında yerləşən neft və qaz ehtiyatları dünyanın bir çox ölkəsi üçün iqtisadi baxımdan önəmlidir. Bundan əlavə, okean və dənizlərin su hərəkətləri – cərəyanlar, dalğalar, qabarmalar – enerji ehtiyatlarını da təmin edir.

Beləliklə, hidrosfer dünya təsərrüfat sistemi üçün həyati əhəmiyyət kəsb edir, su dövranı isə təbiətdə suyun davamlı təzələnməsini, torpaq və bitkilərin qidalanmasını, ekosistemlərin sabitliyini və insan fəaliyyətinin davamlılığını təmin edir.

13.Suyun həyati əhəmiyyəti və orqonoleptik xassələri.

Suyun həyati əhəmiyyəti və orqonoleptik xassələri insan orqanizmi və ekosistem üçün böyük önəm daşıyır. Su canlı orqanizmlərin tərkibində əsas komponent olaraq iştirak edir: insan orqanizminin 70–80%-i, qanın 90%-i, diş emalının 10%-i sudan ibarətdir. Su həm həyat üçün, həm də insanın gündəlik fəaliyyətləri üçün vacibdir, çünki orqanizmin susuzluğu yatırmaq, həzm prosesini stimullaşdırmaq, bədən istiliyini tənzimləmək və toxumaları nəmləndirmək funksiyasını yerinə yetirir.

Suyun orqonoleptik xassələri onun keyfiyyətini qiymətləndirmək üçün istifadə olunur:

1. Şəffaflıq və bulanıqlıq – suyun şəffaflığı Günəş işığını buraxmaq qabiliyyəti ilə ölçülür. Şəffaf suyun 30 sm-lik qatından şrift oxuna bilir. Bulanıqlıq suyun görünüşünü pisləşdirir, çirkli suların qarışması və mikroorqanizmlərin inkişafı üçün şərait yaradır. İçməli suyun bulanıqlığı 1 mq/l-dən çox olmamalıdır.

Şəffaf: >30 sm

Azbulanıq: 25–30 sm

Orta bulanıq: 20–25 sm

Bulanıq: 10–20 sm

Çox bulanıq: <10 sm

2. Rəng – suyun rəngi humin maddələr, yosunlar və çirkli sularla müəyyənləşir. İçməli suyun rəngi 20–30°-dən artıq olmamalıdır.

3. Dad və iy – torpaq, bitki, çürümüş üzvi maddələr, sənaye və məişət tullantıları suyun iyinə təsir edir. Su kəməri ilə verilən içməli suyun dad və iy intensivliyi 2 baldan artıq olmamalıdır.

4. Temperatur – ideal içməli suyun temperaturu 8–12°C-dir. Temperatur artdıqca suda həll olmuş oksigenin miqdarı azalır.

5. Kimyəvi tərkib – suyun əsas tərkib hissəsi H_2O-dur, həmçinin minerallar, duzlar, oksigen, ammonium, nitrit və nitratlar var. pH 6,5–9,0 arasında olmalıdır, quru qalıq 1000 mg/l-dən çox olmamalıdır. Suyun codluğu kalsium və maqnezium duzları ilə müəyyən edilir və 7 mq-ekv/l-dən artıq olmamalıdır. Yeraltı sularda dəmir 0,3 mq/l-dən artıq olmamalıdır, digər ağır metallar (mis, qurğuşun, arsen) isə toksik səviyyələrdən yuxarı olmamalıdır.

6. Oksigen həll olunması – suyun oksigenlə zənginliyi canlı həyat üçün vacibdir. Temperatur artdıqca suda həll olmuş oksigen azalır; artezan quyularında oksigenin səviyyəsi daha aşağıdır.

Beləliklə, suyun həyati əhəmiyyəti onun tərkibindən, orqonoleptik xassələrindən və kimyəvi göstəricilərindən asılıdır. Bu parametrlər insan sağlamlığının qorunması və ekosistem balansının saxlanması üçün vacibdir

14.Hidrosferin iqtisad–ekoloji qiymətləndirilməsi.

Hidrosferin iqtisad–ekoloji qiymətləndirilməsi su mənbələrinin ekoloji vəziyyətini və iqtisadi dəyərini qiymətləndirmək məqsədilə aparılır. Hidrosfer bəşəriyyət üçün həyat mənbəyi olduğundan, onun çirklənməsi ətraf mühit üçün ciddi təhlükə yaradır və su resurslarının davamlı istifadəsi baxımından mühüm məsələlərdən biridir.

Əsas məqamlar:

1. Suların çirklənməsi və nəticələri – Suların çirklənməsi mikroorqanizmlər, üzvi və mineral maddələr, məişət və sənaye tullantıları səbəbindən baş verir. Bioloji çirklənmə xüsusilə qida məhsulları istehsalı və kağız-sellüloz sənayesinin təsiri ilə artır. Bu çirklənmə yoluxucu xəstəliklərin yayılmasına və ekosistemə zərər verir.

2. Oksigenin həll olunması – Suyun temperaturu və mineral tərkibi onun oksigenlə doyması üçün vacibdir. Soyuq şirin sularda oksigen daha çox olur, dəniz sularında isə bir qədər azdır. Oksigenin azalması suda balıqların və digər canlıların ölümünə səbəb ola bilər.

3. Mikrob ədədi və bağırsaq çöpü – Suyun bioloji çirklənməsini qiymətləndirmək üçün mikrob ədədi və koli-indeks istifadə olunur. Təmiz sularda mikrob ədədi 10–30/ml, koli-indeks isə 10-dan çox olmamalıdır.

4. Suyun öz-özünü təmizləmə qabiliyyəti – Su hövzələri müxtəlif fiziki, kimyəvi və bioloji proseslər vasitəsilə üzvi və mineral çirkləndiricilərdən təmizlənir. Axar sularda bu proses daha aktivdir və suyun homojenliyi təmin olunur. Təmizlənmə oksigenin mövcudluğu ilə mümkün olur və BOT (biokimyəvi oksigen tələbatı) ilə qiymətləndirilir.

5. Su anbarları və süni su mənbələri – Su ehtiyatlarının qorunması və keyfiyyətinin təmin edilməsi üçün süni anbarlar tikilir. Onların ətrafında qoruyucu tədbirlər görülür: sahələrin bitkidən təmizlənməsi, meşə zolaqları salınması, sahil torpaqlarının şumlanması və mal-qara otarılmasının qadağan olunması.

6. İqtisadi və texniki yanaşma – Hidrosferin çirklənməsinin azaldılması və suyun keyfiyyətinin qorunması həm texniki, həm də iqtisadi baxımdan qiymətləndirilir. Effektli tədbirlər suyun istifadəsini təhlükəsiz və davamlı edir.

Beləliklə, hidrosferin iqtisad–ekoloji qiymətləndirilməsi su resurslarının həm ekoloji sağlamlığını, həm də iqtisadi istifadəsini qorumaq üçün kompleks yanaşmanı nəzərdə tutur. Su hövzələrinin təmizliyi, oksigen səviyyəsi, mikroboloji vəziyyət və süni müdaxilə tədbirləri bu qiymətləndirmənin əsas göstəriciləridir.

15.Suyun keyfiyyətinin ekoloji normativləri.

Suyun keyfiyyətinin qorunması üçün ekoloji normativlər üç əsas qrupa bölünür:

1. Orqanoleptik xassələrin göstəriciləri

20° temperaturda suyun iyi 2 baldan çox olmamalıdır.

20° temperaturda suyun tamı 2 baldan çox olmamalıdır.

Suyun rəngi 20-dən artıq olmamalıdır.

Bulanıqlığı 1 mg/l-dən artıq olmamalıdır.

Mineral maddələrin konsentrasiyaları suyun orqanoleptik xassələrinə təsir etməməlidir: quru qalıq ≤1000 mg/l, sulfatlar ≤500 mg/l, xloridlər ≤350 mg/l, ümumi codluq ≤7 mg-ekv/l (ayrı hallarda 14 mg-ekv/l), dəmir ≤0,3 mg/l (ayrı hallarda 1 mg/l), manqan ≤0,5 mg/l, mis ≤1 mg/l, sink ≤5 mg/l.

Suyun təmizlənməsində istifadə olunan maddələrin qalıqları da orqanoleptik xassələrə təsir etməməlidir: sərbəst xlor ≤0,5 mg/l, “qalıq-amin” xloru ≤1 mg/l, qalıq aliminium ≤0,5 mg/l, tripolifosfat ≤5 mg/l, aktiv reaksiya pH 6,5–9 olmalıdır.

2. Kimyəvi tərkib üzrə zərərsizlik göstəriciləri

Təbiət sularında flüor ≤1,5 mg/l, nitrat azotu ≤10 mg/l, stronsium ≤2 mg/l, molibden ≤0,5 mg/l, qurğuşun ≤0,1 mg/l, uran ≤0,6 mg/l, radium-226 ≤$1 \cdot 10^{-11}$ Küri/l, stronsium-90 ≤$3 \cdot 10^{-11}$ Küri/l, radioaktiv qarışıqlar ≤$3 \cdot 10^{-11}$ Küri/l.

Suyun təmizlənməsində reagentlərin qalıqları: poliakrilamid ≤2 mg/l, hidrazin-hidrat ≤0,01 mg/l.

Çirkli suların su hövzələrinə atılmasında yol verilən ən böyük konsentrasiyalar normadan artıq olmamalıdır.

3. Epidemoloji təhlükəsizlik göstəriciləri

Koli-indeksi ≤3, koli-titr ≤300 olmalıdır.

Mikrobların ümumi sayı 1 ml-də 100-dən çox olmamalıdır (Ümumdünya Səhiyyə Təşkilatı, Cenevrə, 1965).

Su sərfi normativləri:

Su kəməri və kanalizasiyası olan yaşayış məntəqələrində gündəlik su sərfi adambaşına 200 litr, kanalizasiyası olmayan yerlərdə 40–60 litr, inkişaf etmiş ölkələrdə gündə 400–500 litr təşkil edir.
Su mənbələrinin ekoloji mühafizəsi:

Birinci qurşaq (ciddi rejim zonası): su götürülən mənbə və baş qurğuların ərazisi, giriş qadağan olunur, yaşıllaşdırılır, yağıntı suları nizama salınır.

İkinci qurşaq (məhdudlaşdırma zonası): su hövzəsi və qolları əhatə olunur, çirkli suların axıdılması məhdudlaşdırılır, yaşayış və sənaye obyektləri nizamlanır.

Üçüncü qurşaq (müşahidə zonası): su ilə yayılan xəstəliklərin qarşısını almaq və suyun keyfiyyətinə nəzarət etmək üçün ərazi monitorinq olunur, sənaye fəaliyyətinə nəzarət edilir.

Bu normativlər suyun həm içməli, həm də su təchizatı məqsədli istifadəsi zamanı ekoloji təhlükəsizliyini təmin edir

16.Litosferin qlobal funksiyaları və yerin təbəqələri.

Litosfer (yunanca lito-daş deməkdir)- Yerin üst bərk qatı olub, yer qabığı və üst mantiyanın bir hissəsini əhatə edir. Onun qalınlığı 50–200 km arasında dəyişir. Litosfer Yer sisteminin əsas tərkib hissəsi kimi bir sıra qlobal funksiyaları yerinə yetirir:
Dayaq funksiyası – Canlıların, bitkilərin və insanların yaşadığı, bütün tikililərin yerləşdiyi möhkəm təbəqədir.
Xammal mənbəyi funksiyası – Litosferdən ildə 1000 milyard tondan çox mineral xammal çıxarılır, 400-dən çox faydalı qazıntı hasil olunur.
Enerji mənbəyi funksiyası – Neft, qaz, kömür kimi enerji resursları litosferdən əldə edilir.
Ekoloji tənzimləyici funksiyası – Zəlzələ, vulkanizm, dağ əmələgəlməsi kimi geoloji proseslər burada baş verir və təbiətin tənzimlənməsində rol oynayır.
Biosferin əsası funksiyası – Torpaq örtüyü vasitəsilə bitki və heyvanların yaşaması üçün şərait yaradır.
İqtisadi funksiyası – Kənd təsərrüfatı, sənaye və tikinti fəaliyyətləri üçün təbii əsas yaradır.

Yerin təbəqələri
Yer daxili quruluşuna görə üç əsas təbəqədən ibarətdir: nüvə, mantiya və yer qabığı.

1. Yer nüvəsi

Yerin ən dərin və ən isti qatıdır. Temperaturu 5000–6000°C, sıxlığı 12,5 t/m³ civarındadır. Nüvə əsasən dəmir və nikel elementlərindən ibarətdir və Yerin maqnit sahəsinin yaranmasında mühüm rol oynayır.
2. Mantiya

Yer qabığı ilə nüvə arasında yerləşir. Onun aşağı sərhəddi təxminən 2900 km dərinlikdədir, qalınlığı 2000 km-ə yaxındır.
Yuxarı mantiyada, 60–250 km dərinlikdə, ərimiş hala yaxın bazalt qatı mövcuddur.
Temperatur 1500°C, təzyiq isə 3,7 milyon atm (375 GPa)-a qədər yüksəlir.
3. Yer qabığı

Yerin xarici bərk qatıdır.
Materiklərdə qalınlığı: 15–90 km
Okeanlarda qalınlığı: 5–15 km
Materik tipli yer qabığı – 3 qatdan ibarətdir:
Çökmə (0–20 km)
Qranit (10–30 km)
Bazalt (15–40 km)
Qranit və bazalt arasındakı sərhəd Konrad sərhədi adlanır.
Okean tipli yer qabığı – 2 qatdan ibarətdir:
Çökmə (1–3 km)
Bazalt (5–10 km)
Yer qabığının sıxlığı 2,8 q/sm³, kütləsi isə Yerin ümumi kütləsinin 0,8%-ni təşkil edir.

17.Dünya təsərrüfatı sisteminin formalaşmasında pedosferin rolu və minerallar.

Yer qabığı olduqca mürəkkəb kimyəvi tərkibə malik olub təbiətdə rast gəlinən bütün kimyəvi elementlərə təsadüf etmək olar. Amerika alimi F.Y.Klark Yer qabığında geniş yayılmış 50 kimyəvi elementin orta miqdarını göstərmişdir. Yer qabığı kütləsinin 99,95%-ni 25 element, 0,05 %-ni isə qalan elementlər təşkil edir. Bu kimyəvi elementlərdən Yer qabığını yaradan aşağıdakı minerallar əmələ gəlmişdir.

Minerallar - Yer qabığı müxtəlif süxurlardan təşkil olunmuşdur. Hər süxur isə özü mineraldan ibarətdir. Bəsit süxurun tərkibinə yalnız hər hansı bir mineral daxil olur. Mürəkkəb süxur isə bir neçə müxtəlif mineraldan ibarətdir.
Kimyəvi cəhətdən eyni olub tərkibi dəyişməyən və müəyyən fiziki xüsusiyyətlərə malik olan cisimlərə mineral deyilir.

Mənşəyinə görə minerallar 3 qrupa bölünür: maqmatik, çöküntü və metomorfik.
Maqmatik (ilk) minerallar maqmada yüksək temperatur və təzyiq şəraitində əmələ gəlir.
Çöküntü süxurların mineralları (törəmə) aşınma nəticəsində yaranır.
Metamorfik süxurların mineralları süxurda yüksək temperatur və təzyiq şəraitində baş verən fiziki–kimyəvi proseslər nəticəsində əmələ gəlir.
Minerallar əsasən siniflərə, siniflər isə qruplara bölünür.
I sinif - Saf elementlər: bura təbii halda olan bütün bəsit minerallar daxildir: qızıl, gümüş, platin , metalloidlərdən: kükürd, qrafit, almaz.
II sinif - Sulfidlər: pirit və ya dəmir, kükürd kolçedanı, halqopirit və ya kolçedan.
III sinif - Halloidlər: halloid turşuların duzları; kalit və ya daş duz, karnollit, koinit.
IV sinif - Oksidlər və hidroksidlər: kvars, çaxmaq daşı, boksit, qematit və ya qırmızı dəmir filizi, maqnetit.
V sinif - Oksigen turşularının duzları: sulfatlar - mirabilit, gips, karbonatlar – soda, maqnezium, kaloit, dololit, sidert və ya dəmir şpatı; fosfatlar- ftorapatiat, fosforitlər – vivianit; silikatlar – olivin, çöl şpatları: ortoqlaz, albit, inortit, gil mineralları – törəmə minerallar montmorillonit, kaolinit.
VI sinif - Üzvi birləşmələr: neft, dağ yağı, dağ mumu, asvalt, yantar .

18.Torpaqların ekoloji - iqtisadi qiymətləndirilməsi və torpaq kateqoriaları.

Planetimizin quru hissəsinin sahəsi 149,3mln.kv.km və ya 14,93mlrd. hektardır. Bu hesabla hər adambaşına 2,5ha torpaq sahəsi düşür. Torpaq kənd təsərrüfatında əsas istehsal vasitəsi, bəşəriyyətin başlıca qida mənbəyidir. Səth quruluşundan, coğrafi mühitdən, təbii şəraitindən asılı olaraq torpaqların keyfiyyəti, quruluşu arasında böyük fərq var və geniş sahələrdə insan fəaliyyəti üçün onların çox hissəsi yararlı deyil.
Yerləşdiyi ərazi xüsusiyyətlərinə, məhsuldarlığına görə torpağın kateqoriyaları müxtəlifdir

və bunlar aşağıdakı qruplara bölünür:

1.Qeyri məhsuldar torpaqlar (buz təbəqələri, səhralar, qayalıqlar, su anbarları altında qalan, karxanalar və s.), kənd təsərrüfatına yararsız torpaqlar (kəndlər, qəsəbələr, şəhərlər, yollar, kanallar altında qalan torpaqlar və s.) 36,4% və ya 54,3mln km2;

2.Şumlanmayan məhsuldar torpaqlar (tundra, meşə-tundra, bataqlıqlar, savannalar, şoran torpaqlar və s) 47% və ya 70,5mln. km2;

3.Əkinə yararlı, şumlanan torpaqlar – 16,6% və ya 24,7mln.km2-dir.

Birləşmiş Millətlər Təşkilatının ərzaq və kənd təsərrüfatının təşkili üzrə dövlətlər arası Beynəlxalq Təşkilatının (FAO) məlumatına görə planetimizin quru sahəsi 15mlrd. ha-dır. Göstərilən ümumi torpaq sahəsi aşağıdakı qaydada istifadə edilir:

1.Əkin və plantasiyalar altında 1,5 mlrd. ha və ya 11%;

2.Otaqlar altında 3,2 mlrd. ha və ya 24%;

3.Meşə altındakı torpaqlar 4,1 mlrd. ha və ya 31%;

4.Sair torpaqlar – 4,4 mlrd. ha və ya 34,0% və s.

Yer kürəsinin yalnız 11%-ni tutan məhsuldar torpaqların əkinçilikdə istifadəsi çoxlu kapital qoyuluşu sərf etmədən yaralı hesab edilir.

Torpaqların keyfiyyəti üzrə aparılan tədqiqatlardan aşağıdakı nəticələr müəyyən edilmişdir:

1.İldə 2-3 dəfə məhsul verən birinci dərəcəli torpaqlar – 400 mln. ha;

2.Məhsuldarlıq səviyyəsinə görə 40-60% məhsul vermə qabiliyyətinə malik ikinci dərəcəli torpaq sahələri 500 mln. ha;

3.Aşağı keyfiyyətə malik olan üçüncü dərəcəli torpaqlar 600 mln. ha təşkil edir.

İkinci dərəcəli torpaqlardan alınan məhsullar dünya bazarında nisbətən az rəqabətlidir, əsasən yerli əhalinin ərzaq məhsullarına olan tələbatını ödəyir. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, antropogen faktorlar nəticəsində 1,5mlrd. ha torpaq sahələri şoranlaşmışdır, hər il 8,5mln. ha torpaq sahəsi sıradan çıxır, 3,5 mln. ha eroziyaya uğrayır, 2 mln. ha səhralaşır.

19.Azərbaycan Respublikasının torpaq ehtiyatlarının aqroekoloji və iqtisadi qiymətləndirilməsi.

Azərbaycan Respublikasının torpaq ehtiyatlarının aqroekoloji və iqtisadi qiymətləndirilməsi, torpaqlardan səmərəli istifadənin, onların məhsuldarlıq qabiliyyətinin və iqtisadi dəyərinin müəyyən edilməsi məqsədilə aparılır.

Torpaq ehtiyatlarına kənd təsərrüfatında istifadə olunan və meşələrlə örtülən torpaqlar daxildir. Respublikada ümumilikdə 4227 min hektar sahə kənd təsərrüfatında istifadə olunur. Bundan əlavə, torpaq fonduna bədənsiz ərazilər, bataqlıqlar, dağlıq sahələr və s. daxildir.

